**Azərbaycan xalqı mədəni irsin təbliği və öyrənilməsi ilə yanaşı, fəaliyyətinin prioritet istiqamətləri arasında xeyriyyəçilik, uşaqlara yardım, hər cür humanitar aksiyaların keçirilməsi ilə məşğul olan Heydər Əliyev Fondunu ümid yeri kimi qəbul edir. Xarici ekspertlər və nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri də Fondun qısa müddətdə əldə etdiyi uğurlu nəticələrə, fəaliyyətinin ilk günündən Fonda rəhbərlik edən Mehriban xanım Əliyevanın enerji və təşəbbüsünə, yaradıcılıq əhvali-ruhiyyəsinə heyran qalırlar.**



# Mərhəmət, xeyirxahlıq, humanizm və ümid ünvanı

Həmfikirlər komandası ilə birlikdə ölkənin birinci xanımı cəmiyyətin diqqətini xalqın genetik fondunun qorunması problemlərinə cəlb etməyi öz vətəndaş borcu hesab edir, səylərini əhalinin qayğıya ehtiyacı olan təbəqələrinə, xəstə, valideyn sevgisindən məhrum olmuş uşaqlara yardım etməyə yönəldib. Buna keçmiş qaçqın və məcburi köçkünlərə yardım, talassemiya və diabet xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək, uşaq evlərinin yenidən qurulması və tikintisinə yönəlmiş çoxsaylı proqramlar daxildir.

Daha neçə min azərbaycanlı məktəbli, xüsusən də ucqar kəndlərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən beynəlxalq standartlara uyğun genişmiqyaslı xeyriyyə aksiyaları zamanı tikilmiş yeni məktəblərdə parta arxasına oturmaq imkanı əldə edib.

Mehriban Əliyeva həmçinin Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. Gözəl xarici görünüş və daxili mənəvi keyfiyyətlərin biri-birini tamamlamış şəkildə özündə təcəssüm etdiyi bu zərif xanım qarşıya qoyduğu cəsarətli planlarını həyata keçirmək üçün güc və zaman tapır.

Hər gün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ünvanına vətəndaşlardan yüzlərlə məktub və müraciət daxil olur. Həmin məktubların heç biri diqqətdən kənarda qalmır. Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Fond bir çoxlarına öz imkanları daxilində kömək edir, məktubların bir qismi baxılması və operativ tədbirlərin görülməsi üçün müxtəlif dövlət orqanlarına və yerli qurumlara yönəldilir.

Bir çoxları Heydər Əliyev Fondunun fəaliyyətini təhsil, Azərbaycanın mədəni irsinin qorunması sahəsində düşünülmüş proqramların həyata keçirilməsi ilə əlaqələndirilir. Fondun və onun prezidentinin səyəsində "Yenilənən Azərbaycana - yeni məktəb" proqramı çərçivəsində ölkədə yüzlərlə məktəb tikilib və yaxud əsaslı təmir olunub, bir çox təhsil müəssisələri kompüterlər və lazımi avadanlıqlarla təchiz olunub. O cümlədən çox sayda körpələr və uşaq evləri, uşaq bağçaları təmir olunub.

Heydər Əliyev Fondunun fəaliyyətinin, həmçinin xeyriyyəçilik olduğunu nəzərə alaraq, "Ümid yeri" Uşaq sığınacağına baş çəkdik.

"Uşaqların yeri küçə deyil, böyüklərin qəlbidir", - deyən sığınacağın rəhbəri **Nigar Mənsimova** ilə söhbətimiz məhz Mehriban xanım Əliyevanın xeyirxahlığı sayəsində Xəzər rayonunun Binə qəsəbəsində yerləşən çox rahat, isti mühitin hökm sürdüyü ikimərtəbəli binada baş tutdu.

**–Nigar xanım, necə oldu ki, telejurnalist peşəsini uşaq sığınacağının rəhbəri vəzifəsinə dəyişdiniz?**

–Uzun illər ərzində Azərbaycan dövlət televiziyasında uşaq proqramları redaksiyasında çalışmışam. Daha sonra ictimai-siyasi proqramlar redaksiyasına dəvət aldım. Bu, ulu öndər Heydər Əliyevin xarici şirkətləri ölkəmizə dəvət etdiyi dövrə təsadüf edirdi. O zaman uşaqların küçə həyatına məruz qalması problemi daha yeni işıqlandırılmağa başlanmışdı. Bu problem mənim də diqqətimi çox çəkirdi, əmin idim ki, uşaqların yeri küçə deyil. Həmin dövrdə dilənən, maşın təkərləri qaraldan uşaqların sayı küçələrdə çox idi. Günlərin bir günü axşam saatlarında tədbirdən çıxarkən dəniz kənarında çayxana kimi istifadə olunan bir məkanda bir qrup belə uşaqlarla tanış oldum, söhbətləşdim. Məlum oldu ki, onlar məhz küçədə yaşayırlar, Gündüz dilənirlər, maşın şüşəsi silirlər, maşın təkəri qaraldırlar, xırda alver edirlər, gecə isə yığışırlar bir yerə, təsərrüfat məqsədilə istifadə olunan tikilinin damında yatırlar. Onlar danışdıqca mənim ürəyim parçalanırdı. Onların arasında 7 yaşlı Kamil adlı oğlan vardı. Ona himayədarlıq etmək məqsədilə mənimlə evimizə getməyi təklif etdim ki, heç olmasa onlardan birini bu səfil həyatından xilas edim. Onun verdiyi cavab məni çox təsirləndirdi və düşünməyə vadar etdi. O dedi: "Getməyə gedərdim, xala, ancaq mən dostlarımı burada tək qoya bilmərəm"... Həmin gün balaca uşaq çox böyük sözlər demişdi mənə. Evə qayıdarkən yolboyu yalnız onun cavabını düşündüm. Küçədə olan bütün uşaqların bir dam altında toplanmağa, qayğıya, diqqətə ehtiyacları var. Mən ədliyyə naziri Südabə Həsənovanın yanına gedərək bir "ev" açıb belə uşaqları bir yerə toplamaq üçün hüquqi əsasın verilməsini xahiş etdim. O, bir xeyriyyə cəmiyyətinin əsasnaməsini mənə təqdim etdi. Həmin sənəd əsasında mən qurmaq istədiyim "ev"in necə olacağını ətraflı yazdım və qısa zamanda həmin sənəd təsdiq olundu. Bundan sonra icarəyə yer götürdüm və rəfiqələrimlə birgə başladıq gecə saatlarında küçələri gəzərək belə uşaqları könüllü şəkildə "ev"imizə toplamağa. İlk ay ərzində 60 uşaq topladıq, onların hamısının vəziyyətləri çox acınacaqlı idi, əsl səfil həyat tərzi yaşayırdılar. Heç zaman həkim müayinəsindən keçməmişdilər, təhsildən yayınmışdılar, çoxunun hətta doğum barədə şəhadətnaməyox idi. Uşaqların hər biri ilə bağlı araşdırma apardıq, onlara doğum haqqında şəhadətnamələr aldıq, sığınacağımızda təhsilə yiyələnmələri üçün sinif açdıq. 1997-ci ildə yaratdığımız yer Azərbaycanın ilk uşaq sığınacağına çevrildi.

Çox qürurvericidir ki, məhz bizim "ev"in sayəsində çox sayda uşaq küçə həyatından xilas oldu.

28 ildir fəaliyyət göstərən sığınacağımızın qapıları gücəgündüz hər kəsin üzünə açıqdır. Buraya sığınanlar körpü kimi bu evdən istifadə edərək yeni həyata qədəm qoyublar. İlk illərdə bizə AZERCEL, BP kimi şirkətlər çox yardım ediblər. Balığın təmin edilməsi və ehtiyaclarımızın ödənilməsi üçün hər kəs səfərbər oldu. Ən əsası da sığınacaq üçün Binə qəsəbəsində çox gözəl bina ayrıldı. Günlərin bir günündə birinci xanım Mehriban Əliyeva özü bizim uşaqları ziyarətə gəlmişdi. Həmin gün həm mənim, kollektivimizin, uşaqların xatirində ən gözəl günlərdən biri kimi qalıb. Ana nəvazişi və qayğısı ilə bütün uşaqlara qucaq açdı, oxşadı, başlarına sığal çəkdi, onlarla söhbətləşdi. Uşaqların taleyi barədə söhbətləri çox diqqətlə dinləyirdi. Uşaqlarla söhbət zamanı onlara təhsil almağın vacibliyi barədə tövsiyələr də verdi. Ən unudulmaz xatirələrdir kı Şəhər İcra Hakimiyyətinin kollegiyası öz işini bizim sığınacağa həsr etdi. Daha sonra Təhsil Nazirliyinin kollegiyasında da bizim fəaliyyətimiz müzakirə olundu.

**–Burada qucaqlarında körpələr olan cavan analar qarşıma çıxdı, onlara da himayədarlıq edirsiniz?**

–Bəli, əksəriyyəti məişət zorakılığına məruz qalan, ciddi problemlərlə qarşılaşan, hətta deyərdim ki, həyati təhlükələri olan gənc xanımlardır ki, körpələri ilə birgə bizə sığınıblar. Uşaqların xatirinə biz analara "yox" deyə bilmirik və bura qəbul edirik, problemlərinin həlli ilə məşğul oluruq.

**–Heydər Əliyev Fondunun sığınacağın fəaliyyət göstərməsində nə kimi rolu var?**

–Mən tədbirlərin birində birinci xanım Mehriban Əliyevaya yaxınlaşıb özümü təqdim etdim. O, "Mən sizi tanıyıram, siz küçələrdən uşaqları toplayan xanımsınız", - dedi. O bizə qayğı göstərməklə əslində sığınacağımızın nüfuzunu qaldırdı, mənəvi güc, ruh yüksəkliyi verdi bizə, işimizə qarşı daha məsuliyyətli olmağa başladıq.

Dərhal nümayəndə heyəti göndərildi, bütün zəruri avadanhəmin anlar. Bunun üçün başda Mehriban xanım Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva olmaqla, Heydər Əliyev Fondunun rəhbərliyinə minnətdarlığımızı bildiririk. Onun sözü xatirimdədir, bizi dövlətin hər zaman qayğıya ehtiyacı olan uşaqların yanında duracağına, fəaliyyətimizə dəstək olacağına ümid verdi. Bu gün də biz bunu görürük, duyuruq.

**–İndiki dövrdə bu cür uşaqların qeydiyyata alınması ilə bağlı hansı işlər görülür?**

–Hazırda Sosial Xidmətlər Agentliyi ilə sıx əməkdaşlıq fəaliyyəti göstəririk. Həqiqətən, uşaqlarımızın xilası üçün daha yaxşı şərait yaradılıb. Bu sistem daha şəffafdır, daxil olan bütün uşaqlar barədə məlumatlar dərhal müvafiq portala yerləşdirilir. Əlbir şəkildə həmin uşağın problemləri araşdırılır, ailə ilə bağlı qayğılar öyrənilir və uşaq lazım olan diqqətlə əhatə olunur.

**–18 yaşından sonra burada böyüyən uşaqlara nə kimi köməklik göstərilir?**

–Mən, ilk növbədə, Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürümü bildirmək istərdim ki, məhz onun təşəbbüsü ilə həmin uşaqlar üçün Masazırda, daha sonra isə Sumqayıtda evlər inşa olunub. Uşaq evlərini bitirən məzunların əksəriyyəti həmin binalarda hər cür avadanlıqla təchiz olunmuş mənzillərlə təmin olunublar. Bizim 12 məzun da belə mənzillə təmin olunub.





Danılmaz faktdır ki, birinci xanım Mehriban Əliyeva sanki mələk kimi hər zaman belə acı tale yaşayan uşaqları duyur, hiss edir və onlara qucaq açır, sonrakı həyatlarında onlara yardım edir və cəmiyyətə yararlı, savadlı insan kimi qayıtmaları yolunda misilsiz rol oynayır.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**